*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 331-338*
https://doi.org/10.62837/2024.3.331

**QULIYEVA GÜNEL,**
**ŞAKİRLİ GÜNEL**
Bakı şəh., AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu
gunelramizqizi90@gmail.com

# AXC DÖVRÜ MƏTBUATIN INKIŞAFINDA MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ROLU

Məhəmməd Əmin Rəsulzadə Azərbaycanın görkəmli dövlət xadimi, dahi siyasətçisi və publisisti, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) qurucularından və Azərbaycan siyasi-ictimai mühacirətinin liderlərindən biri olmuşdur. Demokratın qurucusu olduğu Azərbaycan Xalq Cümhuriyyəti iki il yaşamasına baxmayaraq tarixin ən şanlı dövrünü qızıl hərflərlə yazmışdır. Bu qısa vaxt kəsiyində yurdumuzda əmin-amanlıq və asayiş bərpa olunmuşdur. Məhəmməd Əmin Rəsulzadə daima xalqın rifahını əsas meyar hesab etmiş və bu yolda usanmadan böyük işlərə imza atmışdır. "Bir kərə yüksələn bayraq, bir daha enməz!" kəlamını şüar edərək Azərbaycan xalqını birliyə, həmrəyliyə səsləmişdir. Məhəmməd Əmin Rəsulzadə hər zaman mətbuat azadlığını yüksək qiymətləndirmişdir. Onun mətbuat sahəsində gördüyü işlər buna bariz nümunədir. Qəzet və jurnallarda istifadə olunan alınma sözlər, xoşagəlməz ifadələr mətbuat sahəsində qarşıya çıxan əsas maneələrdən hesab edilirdi. Bütün ziyalılar kimi bu problem Məhəmməd Əmin Rəsulzadəni də çox narahat edirdi. Demokrat xalqın maariflənməsi, biliyə yiyələnməsi üçün çıxış yolları axtarırdı. O, vətənin azadlığa qovuşmasının əsas yolunu xalqın savadlanmasında, dünyagörüşünün artmasında görürdü. Məhz bu istiqamətdə demokrat mətbuat və ədəbiyyat sahəsindəki durğunluğu aradan qaldırmaq üçün əlindən gələni əsirgəməmişdir.

**Açar sözlər:** mətbuat, Məhəmməd Əmin Rəsulzadə, Azərbaycan Xalq Cümhuriyyəti, tərcümə, publisistika

Azərbaycanın ictimai-siyasi xadimi, publisist, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində dünyaya göz açmışdır. Dahi şəxsiyyət ruhani Axund Hacı Molla Ələkbərin ailəsində böyüyüb boya-başa çatmışdır. Onun bir şəxsiyyət kimi formalaşmasında ruhani atasının böyük rolu olmuşdur. Görkəmli mütəfəkkir ilk təhsilini S.M.Qənizadənin rəhbər olduğu II müsəlman-rus məktəbində almışdır. Aldığı təhsil və böyüdüyü mühit demokrat M.Ə.Rəsulzadənin həyatında xüsusi izlər buraxmışdır. Belə ki, "Müsəlman gənclik təşkilatı" məhz böyük və tarixi şəxsiyyət M.Ə.Rəsulzadə tərəfindən yaradılmışdır. Bu təşkilat rus müstəmləkəsinə qarşı siyasi təşkilat idi. Bu təşkilata toplaşan tərəfdarlar XX əsrdə Azərbaycanda mövcud olan rus idarəetməsinə qarşı gizli mübarizə aparırdı.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 331-338*

Hər bir ölkənin mədəniyyətinin inkişafı onun ədəbiyyatı ilə bağlı olduğu kimi, hər bir xalqın ictimai-siyasi vəziyyəti də ölkənin mətbuat azadlığı ilə əlaqədardır. M.Ə.Rəsulzadə təkcə siyasi xadim deyil, eyni zamanda cəmiyyətin tərəqqisinə köməklik göstərən bir ziyalı, redaktor və jurnalist idi. M.Ə.Rəsulzadənin fikrincə, qəzetlərin etik çərçivədə davranması, cəmiyyət qarşısında məsuliyyət daşıması öz üzərlərinə düşən tarixi vəzifələri dəqiq yerinə yetirə bilməsi üçün mətbuat mütləq azad olmasıdır [3].

Bizim dövlətimiz Rusiya müstəmləkəsinin tabeliyində olduğu müddətdə Azərbaycanda mövcud olan qəzet və jurnallara söz azadlığı verilmirdi. Azərbaycan dilində çap olunan qəzet və jurnallara senzura qoyulurdu. Bir çox məqalə və əsərlər çap zamanı qəzetdən çıxarılır və yeri boş saxlanılırdı. Bu da öz növbəsində bizim milli inkişafımıza, mədəniyyətimizə ciddi təsir gğstərirdi. 1918- ci ildə Azərbaycan xalqı üçün əlamətdar bir hadisə baş verdi. Bu Azərbaycan Xalq Cümhuriyyətinin qurulması idi. Qeyd edək ki, AXC Müsəlman Şərqində ilk parlamentli respublika hesab olunur. Yarandığı gündən etibarən AXC Azərbaycan xalqının inkişafına təsir edən bir çox məsələlərə dair önəmli qərarlar qəbul etmişdir. M.Ə.Rəsulzadə öz qarşısına qoyduğu önəmli məsələlərdən biri kimi mətbuat azadlığı məsələsini işıqlandırmışdı. Demokrat və siyasi xadim M.Ə.Rəsulzadə həmin dövr üçün çətin hesab olunsa da, bu sahədə misilsiz işlər görmüşdür. Onlardan birincisi 1918-ci il 9 noyabr tarixli sərancamı hesab olunur. Bu sərəncam ilə mətbuat və kütləvi informasiya vasitələrinin nəşrinə və yayılması üzərində dövlət nəzarəti ləğv olunur [4]. Beləliklə, mətbuatda senzura tətbiq edilmir. Daha sonra AXC parlamenti mətbuatla bağlı 1919-cu il 30 oktyabrda qərar qüvvəyə minir. Məhz bu qərara əsasən parlament "Mətbuat haqqında nizamnamə" qəbul etdi. Nizamnaməyə əsasən, mətbuat orqanı ancaq qüvvədə olan qanunları pozub cinayət törətdikdə məhkəmənin qərarı ilə məsuliyyətə cəlb edilə bilərdi [4]. Digər hallarda mətbuatın inkişafına və ya nəşrinə qadağa və maneə yox idi. Bu hadisə ana dilində nəşr olunan qəzet və jurnalların inkişafına və sayının artmasına şərait yaradır. Bu məsələ ilə bağlı dahi şəxsiyyət M.Ə.Rəsulzadə deyirdi: "O millət, o məmləkət xoşbəxt və azaddır ki, onların mətbuatı azad və xoşbəxt olsun. Bu məsələni lazımınca dərk etmək və anlamaq istəyiriksə, onda gərək mətbuat tarixini oxuyub araşdıraq, onun vəzifələrini və müxtəlif vəziyyətlərini təhlil edək" [5]. Azərbaycan xalqının milli dəyərlərindən danışan zaman mətbuata da toxunmaq gərəkdir.Milli dəyərin, ictimai şüurun, özünədərkin formalaşmasında 1918-1920-ci illərinin mətbuat sahəsini xüsusilə vurğulamaq lazımdır. AXC dövründə Bakı ilə yanaşı Azərbaycanın digər şəhərlərində də mətbuat orqanları fəaliyyət göstərmişdir. 1918-1920-ci illər mətbuatı ideya istiqaməti baxımından çox rəngarəng idi: Azərbaycan Xalq Cümhuriyyəti ideyalarını təbliğ edən milli mətbuat, Cümhuriyyət hökumətinə müxalifətdə olan bolşevik mətbuatı, bolşevik mətbuatı ilə müxalifətdə olan eser-menşevik mətbuatı, ermənilərin Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq üçün canfəşanlıq edən erməni-daşnak mətbuatı, özünü bitərəf adlandıran və heç bir siyasi partiyaya mənsub olmayan qəzetlər, jurnallar [6] . AXC ideyalarını təbliğ edən mətbuatlar arasında "Azərbaycan" qəzeti xüsusi yer tuturdu. "Azərbaycan" qəzeti Azərbaycan

və rus dillərində nəşr olunurdu. Bu qəzetin ilk 4 sayı Gəncədə daha sonra isə Bakıda çap olunmuşdur. “Azərbaycan” qəzetinin ilk nömrəsində əlamətdar bir hadisə barəsində məlumat dərc olunur. Bu 1918-ci il 15 sentyabr hadisəsi idi. Bakı şəhərinin Nuri paşa tərəfindən azad edilməsi “Azərbaycan” qəzetində önəmli bir xəbər olaraq qabardılmışdır. “Azərbaycan” qəzeti xalqa milli dəyərlərin, milli şüurun və özünüdərkin inkişaf etməsinə, Azərbaycan mədəniyyətinin, tarixinin yenidən çiçəklənməsinə kömək etmişdir. Bu baxımdan Cümhuriyyət dövründə həyata keçirilmiş milli siyasətin təhlili mühüm əhəmiyyət kəsb edir. Həmin dövrdə Azərbaycanda millətlərarası və dinlərarası dialoqun həyata keçirilməsi sahəsində atılmış mütərəqqi addımlar əslində hansısa xarici təzyiq və diktələrin, beynəlxalq və geosiyasi şəraitin təsiri altında deyil, məhz Azərbaycan dövlətinin iradəsinin nəticəsi idi. Cümhuriyyətin siyasi və mədəni elitası xalqın tarixi-mənəvi dəyərlərinə söykənərək, eyni zamanda onun gələcək taleyini düşünərək vahid dövlət çərçivəsində polietnik və çoxkonfessiyalı cəmiyyət yaratmağa nail olmuşdular.

ACX dövründə müxtəlif dillərdə qəzet və jurnallar nəşr olunurdu. Bu həmin dövrdə tolerant ziyalıların və multikultural ideologiyanın mövcudluğundan xəbət verir. Baxmayaraq ki, Sovet dövründə Ana dilli qəzet və jurnallarmıza xüsusi nəzarət və senzura tətbiq olunurdu, AXC dövründə bu nəyinki Azərbaycan dilli mətbuat orqanlarına, həmçinin digər dildə çap olunan qəzet və jurnallara da tətbiq olunmurdu. Onlara misal olaraq “Bakinets” (1907-1920), “Bakinskaya jizn”, “Bakinskiy raboçiy”, “İskra”, “Nabat” (1919), “Naşa jizn” (1919), “Proletoriy” və s. rusdilli qəzet və jurnallar çap olunurdu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə "İstiqlal" (1918-20), "Azərbaycan" (1918-20), "Övraqi-nəfisə" (1919), "Müsəlmanlıq" (1917-19), "Qurtuluş" (1920), "Mədəniyyət" (1920), "Gənclər yurdu" (1918), "Şeypur" (1918-19), "Zənbur" (1919) kimi milli istiqlal ideyalı mətbuat orqanları nəşr olunmuşdur. «Müsavat» partiyasının orqanları «İstiqlal», «Açıq söz», rus dilində «Naş put» qəzetləri idi. «Əhrar» partiyası «El», hümmətçi menşeviklər «Doğru yol», eserlər «Xalqçı», «Fəhlə və əkinçi» qəzetlərini nəşr edirdilər. İttihadçılar «Müsəlmanlıq» qəzeti ilə təmsil olunmuşdu. Yaradıcı ziyalılar «Məktəb» və «Bəsirət» məcmuələrini, bolşeviklər «Füqəra sədası», «Haqq sədası», «Yoldaş», «Məşəl», «Gənc işçi», iranlı demokratlar «Bayrağı-ədalət», «Hürriyyət», «Sədayi-İran» qəzetlərini nəşr edirdilər. Belə rəngarəng mətbuat dövrün ümumi mənzərəsini, müxtəlif siyasi, ədəbi-mədəni qüvvələrin əhvali-ruhiyyəsini, baxışlarını və siyasi istiqamətlərini özündə əks etdirirdi [6].

Məhəmməd Əmin Rəsulzadə 17-18 yaşında ədəbi yaradıcılığa başlamış və “Şərqi-Rus” qəzetində “Müxəmməs” adlı ilk şeirini nəşr etdirmişdir. XX əsrin əvvəllərində nəşr olunan “Füyuzat” jurnalı, “İrşad”, “Tərəqqi”, “Təkamül”, “Yoldaş” qəzetlərində Rəsulzadə öz məqalələrini və şeirlərini çap etdirmişdir. Məhəmməd Əmin Rəsulzadə mətbuatda yazdığı məqalələrində “MAR”, “MAR-zadə”, M.R-zadə”, “Hamam”, “Sosialist” kimi gizli imzalarla yazmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları, dövlət xadimləri, ideoloqları milli mətbuatımızın təməlini qoyan mütəfəkkirlər idi. İstiqlalçılıq, dövlətçilik, cümhuriyyətçilik fikrən milli mətbuatımızda təbliğ olunurdu. Məhz mətbuat

dinamikasında siyasiləşən, proqramlaşan ideyanın gerçəkləşməsi oldu. Azərbaycan Xalq Cümhuriyyəti «Əkinçi» dən qidalanan, «Ziya», «Kəşkül», «Şərqi-Rus», «Molla Nəsrəddin», «Həyat», «İrşad», «Füyuzat», «Tərəqqi», «Kaspi», «İqbal», «Açıq söz», «Dirilik», «Təkamül» və digər mətbuat orqanları ilə cilalanan milli məfkurənin əməli təntənəsi oldu. Cümhuriyyətin banilərindən Məhəmməd Əmin Rəsulzadə siyasi mübarizəsini «Şərqi-Rus», «Hümmət», «Təkamül», «Dirilik», «Açıq-söz»də xalqına anladırdı və ardınca səsləyirdi. Əlimərdan bəy Topçubaşovun redaktorluğu dövründə «Kaspi»nin məzmunu, siması dəyişdi. İsmayıl bəy Qaspıralı, Həsən bəy Zərdabi düşüncəsinə kökləndi. Həsən bəyAğayev Gəncədə çıxan «Yujni Kafkaz» qəzetinin redaktoru olub, maarifçilik ideyalarını yaymışdır. Nəsib bəy Yusifbəyli Qaspıralınm «Tərcüman» qəzetində əməkdaşlıq edib, M.Ə.Rəsulzadə ilə tanışlığı da «Açıq söz» qəzeti redaksiyasında baş verib. Milli kimliyimizin düsturunu yazanlar Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə mütləqiyyət caynağından qopan ilkin fürsətdə mətbuatımızın «ağır artilleriyası» oldular. [4]

Mütəfəkkir həmin məqalələrində mövcud rejim özbaşınalığı tənqid etmiş və ölkənin ziyalılarına müstəqil fikirlərini qorxmadan, çəkinmədən irəli sürməyə dəvət etmişdir. Demokrat Məhəmməd Əmin Rəsulzadə "Şərqi-Rus", "Hümmət", "Təkamül", "Dirilik", "Açıq-söz" kimi qəzetlərdə açıq-aşkar siyasi mübarizəsini aparmış və xalqına özbaşınalığa, zülmə qarşı öz münasibətini və fikirlərini səsləndirmişdir. M.Ə.Rəsulzadə müəyyən müddət ərzində "İrşad" və "Təkamül" qəzetlərinin müvəqqəti redaktoru olmuşdur. M.Ə.Rəsulzadənin əbədi fəaliyyətində "Açıq söz" qəzetinin böyük rolu olmuşdur. Redaktoru olduğu müddətdə qəzetin ətrafına sayılıb-seçilən elm xadimlərini, ziyalı gənclərimizi toplamağa bacarmışdır. Rəsulzadə 1914-cü il 16 sentyabrda Əlabbas Müznibin redaktorluğu ilə "Dirilik" məcmuəsinin birinci nömrəsi çapdan çıxmışdır. Demokrat 1914-cü ildə yazdığı "Milli dirilik" adlı məqaləsində dil, mətbuat, mədəniyyət məsələlərinə xüsusi yer ayırmışdır. Bu illər ərzində "Milli dirilik", "Dirilik nədir?", "Kənd məktubları və müəllimsizlik" kimi məqalələrə şərhlər yazmışdır.

M.Ə.Rəsulzadə daha sonra İranda "Tərəqqi" qəzetində xüsusi müxbir kimi fəaliyyətə başlamışdır. Onun "İran məktubları" başlığı altında çap edilən yazıları böyük bir kütlənin marağına səbəb olmuşdur. Rubrikada 43 publisistik məqalə yer almışdır. M.Ə.Rəsulzadə bu qəbildə olan məqalələrində mətbuat və söz azadlığını xüsusilə qiymətləndirmişdir. Ümumilikdə götürsək məhz Avropa tipli qəzetçilik sistemini İran mühitinə də M.Ə.Rəsulzadə gətirmişdir. Bu isə bütöv olan vətənimizin, Güneyli-Quzeyli Azərbaycanımızın tarixini, mətbuatını, mədəniyyətini öyrənmək yolunda bir vasitədir [5]. Daha sonra Məhəmməd Əmin Rəsulzadə "İran-nou", "İrane-Ahat" qəzetlərinin baş redaktoru kimi fəaliyyət göstərmişdir. "İran-nou" 2-3 min nüsxə ilə İranın ən nüfuzlu qəzetinə çevrildi. 1910-cu ildə qəzetin fəaliyyəti dayandırılır, oktyabrın 26-da isə İran Demokrat Partiyasının orqanı kimi fəaliyyətini bərpa etdirir. Bununla da İranda Etidaliyyun Partiyası təşkil edilir. Məhəmməd Əmin Rəsulzadə Tehran şəhərində fars dilində yazmış olduğu "Tənqidi-firqeyi –etidaliyyun" adlı kitabını çap etdirmişdir. 1911- ci ildə isə Ərdəbil şəhərində

Məhəmməd Əmin Rəsulzadə farsa dilində qələmə aldığı "Səadəti-bəşər" adlı kitabə nəşr olunmuşdur.

1917-ci il may ayında mətbuatın formalaşması istiqamətində M.Ə.Rəsulzadənin redaktorluğu ilə "Qardaş köməyi" jurnalı çap edildi. Lakin müəyyən səbəblərdən dolayı jurnalın cəmi bir nömrəsi işıq üzü gördü. Bu müddət ərzində M.Ə.Rəsulzadə "Əsrimizin Səyavuşu" əsərini qələmə aldı. Ziyalımız bu əsərində Firdovsinin "Şahnamə"sindən xüsusən də onun "Səyavuş dastanı" bölmələrindən istifadə etmişdir. Burada Səyavuş obrazı İranla Turan arasında qalan baş qəhrəmandır.

Tarixə nəzər salsaq görərik ki, Rəsulzadə ictimai yaradıcılığında tərcüməçiliyə xüsusi önəm vermişdir. Məhz Ü.Hacıbəyovun 1907-ci ildə çapdan çıxmış "Türk-rus və rus-türk lüğəti" kitabının naşiri Rəsulzadə olmuşdur. A.Byuminin 1907-ci ildə qələmə aldığı "Fəhlə sinfinə hansı azadlıq lazımdır" kitabı Azərbaycan-türk dilinə tərcümə etmişdir. Bundan sonra o, Maksim Qorkinin "Ana" əsərindən bir hissəni Azərbaycan dilinə tərcümə etmişdir. Rəsulzadənin 1908-ci il dekabrın 5-də "Qaranlıqda işıqlar" pyesi tamaşaya qoyulmuşdur. Pyesi ana xəttini milli oyanış motivləri təşkil edir. M.Ə.Rəsulzadə İranda Avropa tipli jurnalist sənətinin əsasını qoymuşdur. O, 1910-cu ildə Tehranda fars dilində "Tənqidi-firqeyi-etidaliyyun" adlı kitabını çap etmişdir. 1911-ci ildə Rəsulzadə fars dilində "Səadəte-bəşər" adlı kitabını nəşr etmişdir. Bununla yanaşı M.Ə.Rəsulzadə 1911-ci ilin yayında "Türk ocağı" adlanan qurumda fəaliyyət göstərmiş, "Türk yurdu" jurnalının aparıcı yazarlarından olmuşdur. Burada işlədiyi müddət ərzində demokrat türkçülüyün tarixini və elmi əsaslarını daha dərindən mənimsəmişdir. Türkçülük ideyalarını Rəsulzadə o qədər dərindən öyrənir ki Şeyx Cəmaləddin Əfqaninin "Vəhdəti cinsiyyə fəlsəfəsi" əsərini türkcəyə çevirir və o əsər "Türk yurdu" jurnalında nəşr etdirir. Həmçinin M.Ə.Rəsulzadə "Türk yurdu" jurnalında Cənubi Azərbaycanda yaşayan türk xalqlarına həsr olunmuş məqalələri çap etdirir. Dahi şəxsiyyət öz məqalələrində həmin ərazidə yaşayan türklərin hüquqlarını müdafiə edərək "insanlara hürriyyət, millətlərə istiqlal" çağırışını etmişdir. O, XX əsrin ortalarında həftəlik nəşr olunan "Bildiriş" qəzetinin də nəşrinə nail oldu. Bununla yanaşı 1929-cu ilin mart ayında Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi altında "Odlu yurd" jurnalı çap olundu. 1930-cu ildə demokratın Parisdə fransız dilində yazılmış "Azərbaycan və istiqlaliyyəti" və rus dilində "Qafqaz problemi ilə əlaqədar olaraq panturanizm" kitabları çap olundu.

M.Ə.Rəsulzadə mühacirət dövründə Azərbaycanın şair və yazıçılarının yaradıcılığını tədqiq etmiş, onların sənətini yüksək qiymətləndirmişdir. O, 1923-cü ildə "Azərbaycan Cümhuriyyəti keyfiyyəti-təşəkkülü və şimdiki vəziyyəti", 1928-ci ildə qələmə aldığı "Qafqasya türkləri" əsərində dahi Azərbaycan şairi Nizami Gəncəvi haqqında məlumat verilmişdir. Dahi şəxsiyyət Nizami Gəncəvi haqqında geniş araşdırmalar apararaq 1941-ci ildə şairin 900 illik yubileyi münasibətilə monoqrafiya yazmışdır. Monoqrafiya 1951-ci ildə Ankara şəhərində Milli Təhsil Nəşriyyatında nəşr edilmişdir. Həmin monoqrafiya "Müəllif", "Başlanğıc",

"Əlavələr", "Biblioqrafiya", "Nizamidən mətnlər", "İndeks", "Mətn xarici rəsmlər" adlı bölmələrdən ibarətdir.

M.Ə. Rəsulzadə qələmini ədəbi-tənqidi və ədəbiyyatşünaslıq sahəsində də sınamışdır. Müəllifin "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi" kimi əsərləri Azərbaycan ədəbi mühitinin inkişafına təkan vermişdir. Müəllif bu səpkili əsərində Azərbaycan ədəbiyyatının söz ustalarından olan Nizami Gəncəvi, M.F.Axundzadə, M.Cəlil, M.Ə.Sabir kimi dühaların Azərbaycan ədəbiyyatındakı rolu və mövqeyi haqqında geniş məlumat vermişdir. M.Ə.Rəsulzadə C.Məmmədquluzadə yaradıcılığını yüksək qiymətləndirmiş, müəllifin "Ölülər" pyesini "Azərbaycan satirik ədəbiyyatının şah əsəri" adlandırırdı.

M.Ə.Rəsulzadə bədii söz sənətini yüksək qiymətləndirərək ədəbiyyatın xalq arasında geniş yayılmasını vacib amillərdən hesab edirdi. Bu fikirləri M.Ə.Rəsulzadənin "Azərbaycan kültür gələnəkləri" əsərində görə bilərik. Bu əsərdə Azərbaycan dramaturqu M.F.Axundovun yaradıcılığından geniş söhbət açmışdır.

Azərbaycançılıq məfkurəsi M.Ə.Rəsulzadənin dəyərli və qiymətli yazılardan hər zaman ön planda olmuşdur. Dahi şəxsiyyət "Azərbaycan" terminini bir çox yazılarında çəkinmədən işlədirdi. Həmçinin o öz yazılarında Azərbaycanın tarixi və mədəniyyəti, etnoqrafiya barəsində maraqlı məlumatlar əks etdirmişdir. Azərbaycançılıq məfkurəsinin nəzəri cəhətdən inkişaf etdirilməsi, Azərbaycanın adına, dövlətçilik tarixinə, ərazilərinə münasibətdə irəli sürülən iddiaların əsassızlığının elmi şəkildə sübut edilməsi istiqamətində Azərbaycanın ziyalıları da mübarizə aparırdılar. Bu mübarizənin önündə M.Ə.Rəsulzadə gedirdi. M.Ə.Rəsulzadə "Azərbaycan paytaxtı", xüsusən "Azərbaycan Cümhuriyyəti" adlı məqalələri Azərbaycanşünaslığın inkişafına böyük təsir göstərmişdir . "Azərbaycan Cümhuriyyəti" adlı məqaləsi "İstiqlal" qəzetində dərc olunmuşdur. M.Ə.Rəsulzadə bu məqaləni Cümhuriyyətin bir illiyi münasibətilə 1919-cu il 28 may tarixli nömrəsində dərc etmişdir. "Azərbaycan Cümhuriyyəti" məqaləsində Azərbaycan bir il əvvəl yaradılmış parlamentli respublika haqqında tarixi və dəqiq məlumat verilmişdir

Ümumilikdə Məhəmməd Əmin Rəsulzadənin mətbuatda çap etdirdiyi məqalələri, tərcümə etdiyi əsərləri, qəbul olunmasında leyhinə olduğu qərar və sərancamları millətinin inkişafına təsir edən amillərdəndir. Məhz onun səyi nəticəsində bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanları, qəzet və jurnalları fəaliyyət göstərir. Ömrünün böyük bir hissəsini Azərbaycan ideologiyasına, mətbuat və söz azadlığının inkişafına, xalqın maariflənməsi istiqamətində gördüyü danılmaz işlərə görə dahi demokrat Məhəmməd Əmin Rəsulzadə yaradıcılığı dövrümüz, mədəniyyətimiz və ədəbiyyatımız üçün dəyərli və unudulmaz bir xəzinədir. Bu gün də ölkə başçımız başda olmaqla bütün Azərbaycan xalqı Məhəmməd Əmin Rəsulzadə fəaliyyətini yüksək qiymətləndirir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 29 dekabr 1993-cü ildə demokratın anadan olmasının 110 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir. Cənab prezidentimiz bu ənənəyə sadiq qalaraq 22 noyabr 2023- cü ildə Məhəmməd Əmin Rəsulzadənin yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdır.

## Ədəbiyyat

1. Aşırlı Akif. "Azərbaycan mətbuatının tarixi" (1875-1920). Bakı, "Lider" nəşriyyatı, 2004, 471 s.
2. Zeynalov Nəriman. "Azərbaycan mətbuatının tarixi". Bakı, ADU, 1973, 100 s.
3. Rüstəmova Solmaz-Tohidi. "Məhəmməd Əmin Rəsulzadə və mətbuat azadlığı". II Beynəlxalq Rəsulzadə qiraətləri
4. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Xalq_C%C3%BCmhuriyy%C9%99tind%C9%99_m%C9%99tbuat
5. https://www.elibrary.az/docs/QAZET/qzt2016_234.htm
6. https://axc.preslib.az/az/page/EkINnGdwMm

**GULIYEVA GUNEL, SHAKIRLI GUNEL**

**SUMMARY**

**THE ROLE OF MUHAMMAD AMIN RASULZADE IN THE DEVELOPMENT OF THE PRESS DURING THE ADR PERIOD**

Muhammad Amin Rasulzadeh was an outstanding statesman of Azerbaijan, a brilliant politician and publicist, one of the founders of the Azerbaijan Democratic Republic (1918-1920) and one of the leaders of the political and social emigration of Azerbaijan. The Azerbaijan Democratic Republic, which was founded by a democrat, has written the most glorious period of history in golden letters despite having lived for two years. In this short period of time, peace and order was restored in our country. Muhammad Amin Rasulzadeh always considered the welfare of the people as the main criterion and in this way tirelessly signed great works. "A flag raised once will never come down again!" chanting his speech, he called the people of Azerbaijan to unity and solidarity. Muhammad Amin Rasulzade has always appreciated the freedom of the press. His work in the field of media is a clear example of this. Borrowed words and unpleasant expressions used in newspapers and magazines were considered one of the main obstacles encountered in the media field. Like all intellectuals, this problem worried Muhammad Amin Rasulzade. The democrat was looking for ways to educate the people and acquire knowledge. He saw the main way for the country to achieve freedom in the education of the people and the growth of their worldview. It is in this direction that the democrat has spared no effort to eliminate stagnation in the field of press and literature.

**Keywords:** press, Muhammad Amin Rasulzadeh, Azerbaijan Democratic Republic, translation, publicism

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 331-338*

**ГУЛИЕВА ГЮНЕЛЬ, ШАКИРЛИ ГЮНЕЛЬ**

**РЕЗЮМЕ**

**РОЛЬ МУХАММАДА АМИНА РАСУЛЗАДЕ В РАЗВИТИИ ПРЕССЫ В ПЕРИОД АДР**

Мухаммад Амин Расулзаде — выдающийся государственный деятель Азербайджана, блестящий политик и публицист, один из основателей Азербайджанской Демократической Республики (1918-1920 годы) и один из лидеров политической и социальной эмиграции Азербайджана. Азербайджанская Демократическая Республика, основанная демократом, написала золотыми буквами самый славный период истории, несмотря на то, что прожила два года. За этот короткий период времени в нашей стране были восстановлены мир и порядок. Мухаммад Амин Расулзаде всегда считал главным критерием благополучие народа и таким образом неустанно подписывал великие дела. «Флаг, поднятый однажды, больше никогда не спустится!» скандируя свою речь, он призвал азербайджанский народ к единству и солидарности. Мухаммад Амин Расулзаде всегда ценил свободу прессы. Ярким примером этого является его работа в сфере СМИ. Заимствованные слова и неприятные выражения, используемые в газетах и журналах, считались одним из главных препятствий, встречающихся в сфере СМИ. Как и всех интеллектуалов, эта проблема волновала Мухаммада Амина Расулзаде. Демократ искал способы просвещать народ и приобретать знания. Главный путь страны к достижению свободы он видел в просвещении народа и росте его мировоззрения. Именно в этом направлении демократ приложил все усилия, чтобы ликвидировать застой в области печати и литературы.

**Ключевые слова:** пресса, Мухаммад Амин Расулзаде, Азербайджанская Демократическая Республика, перевод, публицистика.

**Redaksiyaya daxil olma tarixi: 15.03.2024**
**Çapa qəbul olunma tarixi: 30.03.2024**
**RƏYÇİ:** filologiya üzrə fəlsəfə doktoru Samirə Ağababa qızı Əliyeva
**tərəfindən çapa tövsiyə olunmuşdur**